**UOT (1)** **Səh. (17-27)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.17**

# AMEA ELMİ YADDAŞ MƏKANI KİMİ: AKADEMİK TƏDQİQAT ƏNƏNƏSİ, AKADEMİK TƏDQİQAT TƏCRÜBƏSİ, AKADEMİK DÜŞÜNCƏ KÜLTÜRÜ KONTEKSTİNDƏ I HİSSƏ

**Füzuli Qurbanov,**
Fəlsəfə və Sosiologiya İnstitutu, fəlsəfə elmləri doktoru
e-mail: fqurbanov2005@rambler.ru
https://orcid/ 0009-0006-6038-8547

**Xülasə**

İki hissədən ibarət olması nəzərdə tutulan məqalədə Azərbaycanda akademiyaların mövcudluğunun tarixi xronologiyası və onun başqa ölkələrin akademiyaları ilə müqayisəsi əsasında AMEA-nın elmi yaddaş məkanı kimi fəlsəfi refleksiyasına baş vurulmuşdur.

Bu zaman, dünya fəlsəfi və elmi fikrində mövzuya aid bir sıra yanaşmalarla Azərbaycanda mövcud olan yanaşmaların qarşılıqlı əlaqəsində problem tədqiq edilmişdir. Dünya nümunəsində P.Nora, J.Delyoz, M. Ozuf, J. de Pyüimej, M.Vinok və bir sıra sinergetiklərin yanaşmalarına müraciət olunmuşdur. Azərbaycanda Y.Qarayevin və İsa Həbibbəylinin mövzuya nəzəri və metodoloji aiddiyatı olan yanaşmalarına istinad edilmişdir.

Məqalənin I hissəsində AMEA-nın elmi yaddaş məkanı kimi məzmunu müəyyənləşdirilmişdir. Bu zaman dünya fəlsəfi-elmi fikri ilə Azərbaycan fəlsəfi-elmi fikrinin qarşılıqlı əlaqəsində problemə nəzər salınmışdır.

Əsas tezis ondan ibarətdir ki, AMEA-nın elmi yaddaş məkanı kimi məzmununun aydınlaşması bütövlükdə ölkədə akademik ənənə, təcrübə və düşüncə kültürünün özəlliklərini fəlsəfi dərk etməyə imkanlar yaradır.

Məqalədə fənlərarası yanaşmadan istifadə olunur. Bu kontekstdə intersubyektivlik, sinergetik təşəkkül və müqayisəli təhlil prinsipləri seçilmişdir.

Metod kimi dinamik inteqrasiyadan yararlanılmışdır.

**Açar sözlər:** azərbaycançılıq, dövlətçilik, rasionalizm, elmi tədqiqat, konsepsiya, dövrləşdirmə, mədəniyyət, özünüyaratma, zaman

# ANAS AS A PLACE OF SCIENTIFIC MEMORY: IN THE CONTEXT OF ACADEMİC RESEARCH TRADİTİON, ACADEMİC RESEARCH EXPERIENCE, ACADEMIC THOUGHT CULTURE (PART I)

**Fuzuli Gurbanov,**
DSc, the Institute of Philosophy and Sociology of ANAS
e-mail: fqurbanov2005@rambler.ru
https://orcid/0009-0006-6038-8547

**Summary**

The article, which is intended to consist of two parts, addresses the philosophical reflection of ANAS as a place of scientific memory based on the historical chronology of the existence of academies in Azerbaijan and its comparison with the academies of other countries.

At this time, the problem of the interaction of a number of approaches related to the topic in world philosophical and scientific thought with the approaches existing in Azerbaijan was studied. In the world example, the approaches of P. Nora, J. Delyoz, M. Ozuf, J. de Pyumezh, M. Vinok and a number of synergists were addressed. In Azerbaijan, the approaches of Y. Garayev and Isa Habibbayli, which have theoretical and methodological relevance to the topic, were referred to.
In part I of the article, the content of ANAS as a place of scientific memory was determined. At this time, the problem of the interaction of world philosophical-scientific thought with Azerbaijani philosophical-scientific thought was considered.
The main thesis is that the clarification of the content of ANAS as a space of scientific memory creates opportunities for philosophical understanding of the peculiarities of academic tradition, experience and culture of thought in the country as a whole.
The article uses an interdisciplinary approach. In this context, the principles of intersubjectivity, synergistic formation and comparative analysis were chosen.
Dynamic integration was used as a method.
**Keywords:** Azerbaijaniism, statehood, rationalism, scientific research, concept, periodization, culture, self-creation, time

## НАНА КАК ПРОСТРАНСТВО НАУЧНОЙ ПАМЯТИ: В КОНТЕКСТЕ АКАДЕМИЧЕСКОЙ ИССЛЕДОВАТЕЛЬСКОЙ ТРАДИЦИИ, АКАДЕМИЧЕСКОЙ ИССЛЕДОВАТЕЛЬСКОЙ ПРАКТИКИ И КУЛЬТУРЫ АКАДЕМИЧЕСКОЙ МЫСЛИ ЧАСТЬ 1

**Физули Гурбанов,**
доктор философских наук,
Институт Философии и Социологии НАНА
e-mail: fqurbanov2005@rambler.ru
https://orcid/0009-0006-6038-8547

### Аннотация

Статья, посвященная философскому осмыслению НАНА как места научной памяти, основанному на исторической хронологии существования академий в Азербайджане, состоит из двух частей. В I части статьи определяется содержание НАНА как пространства научной памяти, рассматривается проблема взаимодействия мировой философской и научной мысли с азербайджанской философской и научной мыслью. В статье использован междисциплинарный подход, выбраны принципы интерсубъективности, синергетического формирования и сравнительного анализа. Вместе с тем анализируется проблема взаимодействия ряда подходов к предмету в мировой философской и научной мысли существующих в Азербайджане, применяются подходы П. Норы, Ж. Делёза, М. Озуфа, Ж. де Пьюмея, М. Виноки и ряда синергетиков. В статье также использованы научные и методологические подходы разработанные азербайджанскими учеными: академиком И. Габиббейли и профессором Я. Гараевым.
Основной тезис заключается в том, что прояснение содержания НАНА как пространства научной памяти создает возможности для философского осмысления особенностей академической традиции, опыта и культуры мысли в стране.
**Ключевые слова:** азербайджанство, государственность, рационализм, научное исследование, концепция, периодизация, культура, самотворчество, время

## GİRİŞ

Azərbaycan Milli Elmlər Akademiyasının cəmiyyətimizdə və dövlətçiliyimizdə tutduğu yeri və oynadığı rolu ciddi elmi əsaslarla araşdırmamız və adekvat təsəvvürlərə malik olmamız bir zərurətdir. Bunun səbəbləri çoxdur. Hər şeydən öncə, XXI yüzil intellekt, insan, mədəniyyət əsri kimi təqdim edilir. Bu əsrdə hesab edilir ki, bəşəriyyətin və onun tərkib hissəsi kimi hər bir cəmiyyətin (ölkənin, dövlətin) mövcudluğu və inkişaf imkanları başlıca olaraq "elmi xarakterlidir". Yəni indi toplumsal davamlı və dayanıqlı tərəqqi yalnız elmi əsasda reallaşa bilər.

Bu, mütləq həqiqət deyildir, hətta müəyyən alternativlər irəli sürmək və ya razılaşmamaq da olar. Çünki hər bir tarixi dönəmin özəllikləri mövcuddur. O cümlədən, bizim "intellekt" adlandırdığımız və əsasən elmi fəaliyyətə aid etdiyimiz insan artefaktının topluma təsiri fərqli ola bilir. Bundan başqa, hər hansı insan fəaliyyətinin mütləq mənada pozitiv və ya qeyri-pozitiv olduğunu sübut edən məntiqi model mövcud deyildir.

Buna görə də praktiki mənzərəyə baxmaq kifayət edir. Praktika isə XXI yüzilin elm, intellekt və mədəniyyət əsri olduğunu tam təsdiq etməkdədir. İndi intellekt çırağının nuru düşməyən hər hansı sosial faktor tərəqqi sayılmır. Bütövlükdə dövlətlərin və cəmiyyətlərin rəqabəti elmi əsasda ölçülür. Dünyanın o dövlətləri güclü sayılır ki, inkişaf etmiş nəzəri elmi və praktiki-tətbiqi texnologiyaları mövcuddur. Hazırda süni intellekti inkişaf etmiş olan ölkələri öndə gedən sayırlar. Sosial, mədəni, mənəvi, əxlaqi və s. istiqamətlərdə ciddi elmi konsepsiyaları tətbiq edə bilən ölkələr daha potensiallı qəbul edilirlər.

Dünyanın ən qüdrətli dövləti olan ABŞ XXI əsrin ilk onilliyində həyəcan təbili çalmışdır. Amerika rəhbərliyi ölkənin təhsil sisteminin Yaponiya, Çin, Koreya, Sinqapur və digər inkişaf edən ölkələrin təhsilindən geridə qalmağa başlamasından çox narahat olmuşdu. O dövrdə prezident olan Barak Obama Amerika Elmlər Akdemiyasında etdiyi tarixi çıxışında demişdi: "Bizim məktəblər inkişaf edən başqa ölkələrin məktəblərindən və bəzi hallardas inkişaf etməkdə olan ölkələrin məktəblərindən geridə qalırlar. Riyaziyyat və dəqiq elmlər sahəsində bizim məktəbliləri Sinqapur, Yaponiya, İngiltərə, Honkonq, Koreya və başqa ölkələrin məktəbliləri ötürlər. Bir tədqiqatın nəticələrinə görə, 15 yaşlı amerikanlar riyaziyyat üzrə dünyada 25-ci, dəqiq elmlər üzrə isə 21-ci yerdədirlər [trv-science.ru, 26.05.2009].

Əslində, Amerika prezidentinin Akademiyadakı çıxışı bütövlükdə ABŞ elmində özünü göstgərməyə başlayan köklü məsələlərlə bağlı idi. B.Obama özünün çıxışından 45 il əvvəl R.Kennedinin istfadə etdiyi bir fikri təsadüfən təkrar etməmişdi. R.Kennedi 1974-cü ildə demişdi: "Bu çağırış bizim xilasımız ola bilər". Deməli, Amerika akademik tədqiqat təcrübəsində ölkə və cəmiyyət üçün ən təhlükəli anlarda elmi intellektual gücün sayəsində xilas olmaq məqamı mövcuddur.

XXI əsrdə ABŞ rəhbərliyinin akademik elmi tədqiqatlara bu dərəcədə önəm verməsi bütövlükdə dünya üzrə bu elmi təşkilatlanmanın aktuallığı və zəruriliyi məsələsində də konkret fikirlər formalaşdırır. Bu konteksdə məhdud sayda elmlər akademiyaları üzərində qısa dayanaq.

Bir neçə akademik nümunə

**NAS (The National Academy of Sciences)**

ABŞ Milli Elmlər Akademiyası (The National Academy of Sciences (NAS)) 1863-cü il martın 3-də prezident Avraam Linkoln tərəfindən imzalanmış Konqres aktı ilə yaradılmışdır. Maraqlıdır ki, A.Linkoln həmin dövrdə Amerikanın çox çətin vəziyyətdən çıxması üçün ilk olaraq elmi tədqiqatı gücləndirməyi əsas saymışdır. Buna olan etirazlara baxmayaraq o, NAS-ın əsasını qoymuşdur. ABŞ-də həmin dövrdə bir sıra nüfuzlu dairələr hesab edirdilər ki, belə çətin zamanlarda elmə ayrılan vəsait boşuna gedəcək. Elm dövləti və ölkəni xilas edə bilməz. Ölkəni biznes, kapital toplamaq, hərbi qüvvə və ticarət xilas edə bilər. Lakin zəkalı A.Linkoln qərarını vermişdi – ancaq elm xilaskar ola bilər!

ABŞ-də belə bir fikir vardır ki, Akademiya millətin elm, texnika və tibb üzrə "məsləhətçisidir". NAS üzvləri ictimai əsaslarla işləyirlər. 2024-cü ildə onun 2617 üzvü olmuşdur. 527 xarici üzvü olmuşdur. Onlardan 190 nəfəri Nobel mükafatçısıdır. Yeni üzvlər ömürlük seçilirlər. Səsvermə gizlidir. Akademik olmaq Amerikada elmə xidmətin yüksək etirafı sayılır.

NAS hələ də ABŞ-də fundamental elmi tədqiqatların mərkəzi sayılır. Ölkədə çox güclü universitetlərdə və beyin mərkəzlərində olduqca səmərəli araşdırmalar aparılmasına, konkret nəticələr alınmasına baxmayaraq NAS-ın Amerika elmində yeri və rolu getdikcə daha çox önəm daşıyır. Bunun əsas səbəbi elm siyasətini daha çevik yeniləşdirmək ehtiyacının artması ilə əlaqələndirmək olar. B.Obamanın məhz NAS-da elmə ABŞ tarixində ən çox vəsait ayırmanı bəyan etməsi bu baxımdan başa düşüləndir: Orada B.Obama göstərilən müqavimətlərə baxmayaraq bəyan etmişdir ki, ölkə büdcəsinin 3% - dən çoxunu elmə ayırır (150 milyard dollar) və məşhur tezisini demişdir: "Elm əvvəllər olmadığı qədər lazımlıdır!"

BA

1662-ci ildə təbiət haqqında elmlərin inkişafı üzrə "London Kral cəmiyyəti" (Royal Society of London for Improving Natural Knowledge) təsis edilmişdir. 1901-ci ildə isə ingilis humanitar elminin maraqlarını təmin etmək üçün Britaniya Akademiyası (British Academy, BA) yaradılmışdır. Akdemiyanın tam adı belədir: Tarixi, fəlsəfi və filoloji tədqiqatlara yardım üzrə Britaniya Akademiyası (The British Academy for the Promotion of Historical, Philosophical and Philological Studies). Akademiyada adi üzvlər, böyük üzvlər - yaşı 75-i ötmüşlər, fəxri üzvlər (onların sayı 20-ni keçmir) vardır. Hər il BA-ya 35-ə qədər yeni üzvlər seçilir. BA-nın hazırkı rəhbəri tarixçidir. Amerika Fəlsəfə Cəmiyyətinin üzvüdür. Nüfuzlu "Oxford Dictionary of National Biography"nın redaktorudur.[Hunter, 2019; Royal Society, 2025].

TÜBA

TÜBA – "Türkiye Bilimler Akademisi"dir. Avtonom elmi camiədir. Türkiyədə elmi fəaliyyətə dəstək məqsədi ilə yaradılmışdır. İndi bütövlükdə Türk dünyasına istiqamətlənmişdir. Akademiya Türkiyə baş nazirinin ofisinə tabedir. Büdcənin böyük hissəsi dövlət tərəfindən formalaşdırılır. İnzibati avtonomluğa malikdir. TÜBA 1993-cü ildə yaradılmışdır.

Əsas vəzifələri sırasında prioritet elmi istiqamətləri müəyyən etmək və qanunverticiliyi təhlil edərək konkret təkliflər də yer almışdır. Akdemiya gənc tədqiqatçıları yaradıcılıqlarında dəstəkləyərək onlara maliyyə ayırır. Türk dilinə əsərlərin tərcüməsi üçün vəsait ayırır. Bununla yanaşı, fundamental tədqiqatları tənzimləmək üçün TÜBİTAK yaradılmışdır. TÜBA-nın üç üzvlük səviyyəsi mövcuddur: həqiqi üzvlər, assosiativ üzvlər və fəxri üzvlər [TÜBA, 2025].

Azərbaycanda akademiyalar: qısa tarixi xronologiya

ABŞ, Böyük Birtaniya və Türkiyə nümunəsində fərqli akademik təcrübələri göstərməyə çalışdıq. Səthi müqayisələr belə göstərir ki, üç dövlətdə akademik tədqiqatların özəl təcrübəsi yaranmışdır. Onların hər birinin məqsədi və struktur-funksional özəllikləri fərqlidir. Tarixin konkret dönəmlərində qarşılarına müxtəlif məqsədlər qoya bilirlər.

Lakin həmin akademiyalardan başqa dünya üzrə mövcud olan 10-larla akademik müəssisələrin analoji müqayisəsi göstərir ki, hər biri üçün ortaq olanı tədqiqatların müəyyən sistemdə – Akademik sistemdə aparılması ilə bağlıdır. Bu o deməkdir ki, konkret nümunələrdə fərqli təcrübələr toplansa da, elmi araşdırmanın təşkili, funksiyalaşdırılması və tətbiqi məntiqi ilə bağlı ortaq bir xüsusiyyət vardır – buna "akademiklik" deyək.

Buradan bir neçə nəticə çıxara bilərik. Birincisi, dünya üzrə akademik tədqiqatlar təcrübəsi mövcud ola bilər. İkincisi, həmin təcrübələr ölkədən ölkəyə məzmunca və məqsədcə dəyişə bilər. Üçüncüsü, bütün variantlarda hər bir ölkədə özünəxas akademik tədqiqat ənənəsi, akademik tədqiqat təcrübəsi, akademik araşdırma kültürü mövcud ola bilər.

Bizim bu məqalədə əsas məqsədimiz Azərbaycanda akademik ənənə, təcrübə və araşdırma kültürünü fəlsəfi təhlil etməkdən ibarət olduğuna görə, Azərbaycan təcrübəsinə tarixi rakursda bir qədər geniş nəzər salaq. Onu vurğulayaq ki, Azərbaycanla bağlı vəziyyətin təhli-

lində müəllifin "AMEA inkişaf və yeniləşmə yollarında" (2025) adlı monoqrafiyasında yer almış materiallardan istifadə edilmişdir.

Mənbələrdə göstərilir ki, Azərbaycanın indiki coğrafi-mədəni məkanında Bizansda akademiyalar ləğv ediləndən sonra (V əsrdə Edessa, VI əsrdə Afina akademiyaları ləğv edilmişdir) çoxlu sayda akademiyalar yaranmışdır. Qədimdən Azərbaycanın coğrafi-mədəni məkanında folklor, ədəbiyyat, fəlsəfə, riyaziyyat, etika, coğrafiya, fizika, kimya, tibb və s. elm sahələri mövcud olmuş və onlar hətta bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir.

Tədqiqatlarda qeyd olunur ki, "Azərbaycanın tarixi ərazisində ilk yazılı elmi əsərlərə... İslam dininin qəbulundan sonrakı dövrlərdə rast gəlinir. IX əsrdə məşhur "Hikmət evi" ("Beytül-hikmət") adlı Bağdad Akademiyasının meydana gəlməsi...Azərbaycanda da elmin inkişafına ciddi təkan vermişdir. Bu..., müxtəlif elm sahələrini - riyaziyyat, tibb, biologiya, astronomiya, həndəsəni öyrənən elm ocağı idi" [Əlizadə, 2015].

Orta əsrlərdə Azərbaycanın coğrafi-mədəni məkanının bir neçə şəhərində, məsələn, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiyədə elmi mərkəzlər yaradılmışdır. "Nəsirəddin Tusinin Marağa rəsədxanası dünyada məşhur idi. Orada müxtəlif ölkələrdən gəlmiş insanlar elm öyrənir və vətənlərində T.Tusi rəsədxanasının elmi tədqiqat ənənəsini davam etdirirdilər. Onu vurğulayaq ki, N.Tusinin elmi mərkəzi akademik tədqiqatın şərtləri daxilində fəaliyyət göstərirdi. Orada indi akademik fəaliyyət üçün lazım olan elmi-metodoloji və maddi-texniki struktur mövcud idi. "Nəsirəddin Tusinin təşkil etdiyi alimlər yığıncağı, müasir dildə desək, akademiyanın rəyasət heyəti Təbriz şəhərində yerləşirdi". Ayrıca şəhərcikdə tələbələr və tədqiqatçılar üçün şərait yaradılmışdı" [Qurbanov, 2025, s. ].

Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki Şirvani, Fazil Şirvani, Əminəddin Müzəffər Təbrizi, Müxdəsəddin Səlmasi və başqalarının çox dəyərli əsərlərinin meydana gəlməsində akademik ənənənin ciddi rolu olmuşdur.

Şamaxı akademiyası müasir Azərbaycan Respublikasının coğrafi-mədəni məkanında ilk akademiya kimi göstərilir. Onu Ömər Osman oğlu yaratmışdı. O, Azərbaycan alimi və həkimi kimi tanınmışdı. Şamaxı akademiyasının tərkibində ciddi araşdırmalar aparaılan tibbi məktəb mövcud idi. Orada xarici tədqiqatçıların da çalışdığı haqqında informasiyalar vardır.

İndi Şamaxı şəhərinin yaxınlığında olan Məlhəm kəndi həmin akademiyanın dərmanlarını hazırlayan məkan kimi Şamaxı Akademiyasının bu günümüzə gəlib çatan "mədəni yaddaşı", əlaməti, "tarixi yadigarı"dır. Şamaxı akademiyasında "Ömər Osman oğlu xariçi mühitin faktorlarının insan fiziologiya və patologiyasında təsirinin öyrənilməsinə çox geniş yer verirdi. Bunların içərisində Günəşin təsirindən o qədər danışmışdır ki, onun doğulduğu yer indi də "Dədə Günəş" adı ilə məşhurdur. Ömər Osman oğlunun təşkil etdiyi akademiyanın nəzdində kimyaçılar da fəaliyyət göstərirdilər. Ömər Osman oğlu və onun davamçılarının elmdə əsas nailiyyətlərindən biri yalnız faktlara və müşahidələrə əsaslanmaları və onların dərin təhlilini verməsi idi. Demək olar ki, onun təşkil etdiyi akademiyanın tibbi şöbəsi birinci növbədə Azərbaycanda klinika tədqiqat metodlarını yaymağa başlayır. Əfsuslar olsun ki, zəlzələlər və yadellilərin hücumu nəticəsində Şamaxı Akademiyasından bizə gəlibçatan əsərlər və abidələr məhduddur və əldə olan məlumatlar da lazımi dərəcədə tədqiq olunmamışdır" [Orta Əsrlər şərqində elm akademiyaları, 2025].

Təbrizdə XIII əsrdə elmlər akademiyası yaradılır. Onu Azərbaycan tarixçisi və məşhur həkimi Rəşidəddin yaratmışdı. Təbriz akademiyasında müxtəlif ölkələrdən - Çin, Misir, Hindistan və bir sıra Avropa ölkələrindən olan tədqiqatçılar çalışırdı.

"Bu akademiyanın idarələrinin hamısı Təbrizin yaxınlığındakı "Rübe-Rəşidi" ("Rəşidi kvadratı") adlanan ərazidə yerləşirdi. Bu akademiyanın xarabalıqları indi də həmin yerdə durur. Burada o zaman alimlər küçəsi, alimlər evi, alimlərin işləməsi üçün geniş laboratoriyalar və s. mövcud idi. Bu akademiyada əsas yeri tibb, əczaçılıq, botanika tutmuşdur. Maraqlıdır ki, həmin akademiyanın yaxınlığında "Fəxrabad" adlı yerdə böyük botanika bağı varmış. Orada akademiyanın klinikalarında müalicə olunan xəstələr üçün indiki dildə desək, ekoloji

cəhətdən təmiz, yüksək keyfiyyətli göy-göyərti və meyvələr becərilirmiş"..."Rəşidəddin Azərbaycan alimlərinə böyük qiymət verirdi. O, yazırdı ki, Aristotel və Platonun öz dövrləri var idi. İndi isə başqa dövrdür. Azərbaycanın dahi həkimlərindən Mahmud İbn İlyas və Mahzabəddin Təbrizi haqqında çox danışırdı" [Orta Əsrlər şərqində elm akademiyaları, 2025]..

"XV-XVIII əsrlərdə də Azərbaycandakı akademiyalar fəaliyyətlərini davam etdirmişdir. Həmin dövrdə Əbdürrəşid Bakuvinin elmi fəaliyyəti çox səmərəli olmuşdur; ölkənin coğrafiyası və təbiəti ilə bağlı qiymətli məlumatlar vermişdir" [Qurbanov, 2025, s.].

XIX əsrdən Azərbaycanın tarixində yeni mərhələ başlayır. Rusiya imperiyasının Qacar Səfəvi ilə apardığı müharibə nəticəsində Azərbaycan iki yerə praçalanır və bununla ölkə fərqli mədəni və siyasi mühitlərə düşən parçalara bölünür. Ölkənin şimal hissəsində 1919-cu ildə Bakı Dövlət Universiteti yaradıldı. Bu, "sonrakı mərhələdə Azərbaycanda akademik tədqiqatlarda Qərb, Rusiya və Şərq elmi araşdırma ənənələrinin sintezini yaratmaq üçün ciddi təkan rolunu" oynadı [Qurbanov, 2025, s.].

Bu prosesdə 1922-1923-cü illərdə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu ayrıcadır. Bu qurumun əsasında 1923-cü ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu yaradıldı. İnstitutda təbiət elmləri ilə yanaşı, humanitar və Şərqi öyrənən bölmələr də vardı.

Akademik A.Əlizadə yazır ki. "bu cəmiyyəti və institutu Azərbaycanda XX əsrdə akademik tədqiqatların təşkilinin ilk formaları hesab etmək olar. Məhz cəmiyyətin bazasında SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil olundu. Burada rus alimləri ilə yanaşı, Ə.Haqverdiyev, B.Çobanzadə, M.Əfəndiyev, A.Tağızadə və başqa alimlər çalışırdılar. 1935-ci ildə həmin şöbə SSRİ EA-nın Azərbaycan Filialına çevrildi. Burada Azərbaycanın təbii sərvətlərinin tədqiqinə də xüsusi diqqət yetirilirdi. O səbəbdən də Elmi Tədqiqat Neft İnstitutu və Azərbaycan Elmi Tədqiqat Neft Maşınqayırma İnstitutu təsis edildi" [Əlizadə, 2015]. 1940-cı ildə Azərbaycanda 60 elmi müəssisə vardı. Həmin müəssisələrdə 3 minə yaxın elmi işçi çalışırdı.

Nəhayət, 1945-ci ildə isə Azərbaycan Elmlər Akademiyası təsis edildi. Bununla Azərbaycanda akademik elmi fəaliyyətin təşkilində yeni mərhələ başlamış oldu.

AMEA mərhələsi

1945-ci ildən başlayaraq Azərbaycan Elmlər Akademiyası 1991-ci ilə qədər bir neçə mərhələli fəaliyyət yolunu keçmişdir. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan SSR-ə rəhbər olması ilə Akademiyanın fəaliyyətində müsbətə doğru ciddi dəyişikliklər olmuşdur. Heydər Əliyev AEA-nın elmi fəaliyyətini başlıca olaraq Azərbaycana xidmətə yönəltmişdir. Bir neçə yeni şöbələr və institutlar yaradılmışdır.

Həmin dönəmi elmi-nəzəri aspektdə akademik İsa Həbibəyli dolğun şəkildə "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası" adlı məqaləsində geniş təhlil etmişdir [Həbibbəyli, 2023].

1991-cı ildən isə Elmlər Akademiyasının müstəqillik mərhələsi başlayır. 1993-cü ilə qədər olan müddətdə Akademiyanın fəaliyyətində aktivlik hiss olunmurdu. Təşkilatın taleyi o zaman aydın deyildi. Ulu Öndər Heydər Əliyevin xalqın dəvəti ilə hakimiyyətə gəlişi bütövlükdə ölkədə olduğu kimi, Elmlər Akademiyasında da vəziyyəti müsbət istiqamətdə dəyişdi.

Heydər Əliyev müstəqillik mərhələsində Azərbaycan EA-nın inkişafına yeni təkan verdi. 1997-ci ildə Ulu Öndər Elmlər Akademiyasının bir qrup aparıcı alimlərini qəbul etdi. Heydər Əliyev müzakirələrdə elm sahəsində islahatların aparılmasının vacibliyini əsaslandırdı. O cümlədən, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirdi [Qurbanov, 2025, s. ].

Nəhayət, "Azərbaycan Prezidentinin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi, 30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli sərəncamlarla AMEA Rəyasət Heyəti və Akademiyanın bütün işçilərinin əməkhaqları bir neçə dəfə artırıldı, 2002-ci il avqustun 12-də AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalandı, ulu öndərin sədrliyi ilə Naxçıvan Ali Məclisinin iclas zalında bu bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirildi"

[AMEA-nın strateji inkişaf konsepsiyası, 2025, s. 8-9].

Bununla AMEA XXI əsrə zəngin elmi tədqiqat və təşkilatlanma təcrübəsi ilə qədəm qoydu və Akdemiyanın tarixində Prezident İlham Əliyev mərhələsi başladı. 2003-2022-ci illər "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin modernləşmə, biliklər cəmiyyətinin qurulması strategiyası kontekstində elmin növbəti inkişaf mərhələsidir. Həmin dönəmdə "İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi çoxsaylı qərarlar sırasında "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" mühüm yer tutur. Bu mərhələdə AMEA-nın tərkibində bir neçə yeni elmi müəssisənin fəaliyyətə başlamasını, kadr hazırlığı sahəsində əldə edilən nailiyyətləri, elmin populyarlaşdırılması sahəsində uğurları, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində tədbirləri xüsusi qeyd etmək olar" [AMEA-nın strateji inkişaf konsepsiyası, 2025, s. 8-9].

2022-ci ildən başlayaraq islahatlar fundamental və əhatəli həyata keçirilir. "Bu mərhələyə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı ilə start verilmişdir" [AMEA-nın strateji inkişaf konsepsiyası, 2025, s. 9].

Burada AMEA rəhbərliyinin 2022-ci ildən başlayaraq həyata keçirdiyi yeniləşmə kursu xüsusi yer tutur. Təşkilatın prezidenti dövlət başçısının müəyyən etdiyi ölkənin strateji inkişaf kursuna tam uyğun olan yeniləşmə xəttini qətiyyətlə həyata keçirir. Burada bir-biri ilə sıx əlaqədə iki istiqamət reallaşdırılır. Birinci istiqamət AMEA rəhbərliyinin Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasına uyğun olaraq təşkilatın yeniləşməsinin ümumi prinsiplərini müəyyən etməsi ilə bağlıdır. İkinci istiqamət isə müəyyən edilən yeniləşmə prinsiplərinin praktiki-tətbiqi aspektdə həyata keçirilməsidir.

Birinci istiqamətin əsasında Azərbaycanın strateji inkişaf konsepsiyasında müəyyən edilmiş Milli Prioritetlər dayanır. Həmin prioritetlərin ruhuna və qarşıya qoyulan hədəflərinə uyğun olaraq AMEA rəhbərliyi aşağıdakı istiqamətlər üzrə 2022-ci ilin payızından başlayaraq yeniləşmə prosesini ardıcıl olaraq həyata keçirir:

"- Ölkənin strateji inkişaf konsepsiyası çərçivəsində qarşıya qoyulan məqsədlərə çevik və keyfiyyətli nail olmaq üçün AMEA-nın struktur-funksional quruluşunda islahatların aparılması;

- Birinci bənddə müəyyən edilən məqsəd kontekstində AMEA-da elmi fəaliyyətin təşkilinin yeniləşməsi;

- İkinci bəndin daha konkret səviyyəsi kimi qəbul edilə bilən elmi-tədqiqat institutlarında Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasına uyğun mövzuların tədqiqinə üstünlüyün verilməsi;

- Bütövlükdə ən müasir yanaşmalardan faydalanmaq üçün AMEA-da rəqəmsallaşdırma və elektronlaşdırma prosesinin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi;

- Nəhayət, qarşıya qoyulan vəzifələri tam yerinə yetirmək üçün AMEA üçün uyğun beynəlxalq əməkdaşlıq mühitinin yaradılması. Vurğulanan aspektdə ölkənin ali elmi təşkilatının beynəlxalq elmi əlaqələrinin daha da genişləndirilməsi, dərinləşdirilməsi və inkişaf etdirilməsi" [Qurbanov, 2025, s. ].

Bu istiqamətlər üzrə səmərəli fəaliyyət göstərmək üçün AMEA rəhbərliyi 7 prioritet müəyyən etmişdir. Onları 2024-cü il fevralın 29-da AMEA Rəyasət Heyətinin Ümumi yığıncağında akademik İsa Həbibbəyli elan etmişdir. Həmin prioritetlər aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir.

2. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində türk dünyası ilə əlaqələri ölkəmizin ən mühüm prioritetlərindən biri kimi müəyyən etməsi Akademiyada da türk dünyası üzrə tədqiqatla-

rın miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini tələb edir.

3. Rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizliklə bağlı məsələlərin Akademiyanın Humanitar və İctimai Elmlər bölmələrinin əhatə etdiyi elmi tədqiqat institutlarının elmi dövriyyəsinə daxil edilməsi yaxın dövrün əsas prioritetlərindəndir.

4. Geniş mənada dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək məqsədilə beynəlxalq elmi təşkilatların işində yaxından iştirak etmək, ölkəmizi yüksək səviyyədə təmsil etmək, dünya elminin ən yeni təcrübələrini Akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirmək lazımdır.

5. Akademiyanın gəncləşdirilməsinin genişləndirilməsi üçün "Gənc Akademiya" layihəsinin həyata keçirilməsinə ehtiyac vardır.

6. Azərbaycan elmində, o cümlədən də Akademiyada doktorantura təhsilinin Qərb modelinə uyğunlaşdırılmasına ehtiyac vardır. Doktorantura özünəməxsus tədris planı, fənn proqramları, kredit vahidləri, dərs sistemi olan bir təhsil səviyyəsinə çevrilməlidir.

7. AMEA-da struktur islahatlarının davam etdirilməsi yolu ilə mövcud idarəetmə strukturlarının yeniləşdirilməsinə nail olmaq yeni tarixi dövrün irəli sürdüyü tələblərdəndir [Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının..., 2024, s. 10-11].

Beləliklə, qısa təhlil göstərir ki, Azərbaycanda qədim dövrlərdən başlayaraq akademiyalar mövcud olmuşdur və bu, davamlı olaraq akademik tədqiqatların konkret ənənəsini, təcrübəsini və düşüncə mədəniyyətini formalaşdırmışdır. Azərbaycan yunan akademiyalarının struktur-funksional özəllikləri üzərində özünün akademik tədqiqat "mentaliteti"ni yaratmışdır. Bu o deməkdir ki, akademizm artıq Azərbaycan intellektual təcrübəsinin elmi yaddaş məkanlarından birinə çevirilmişdr. Burada "yaddaş məkanı" (fransızca - lieu de mémoire) anlayışı Pyer Nora mənasında işlənir. Fransız tarixşünası P.Nora "yaddaş məkanını" hər hansı cəmiyyətin tarixində müəyyən sferada ciddi təsirlər göstərmiş və tarixi yaddaş elementinə çevirilmiş fəaliyyət növü, məkanı, böyük şəxsiyyətlərin xidmətləri, maddi-mədəni abidələri kimi tərif etmişdir [Nora, 1999, s. 17-21].

Bu anlayışı Azərbaycanda akademik tədqiqatlar ənənəsinə reduksiya etsək, alarıq ki, tarixən Akademiyaların ölkəmizdə fəaliyyəti davamlı və məqsdəyönlü olmuş, bu elmi fəaliyyət modeli ciddi şəkildə Azərbaycanda elmin institutlaşmasında rol oynamışdır. Həmin keyfiyyətdə də tədqiqatlarda akademizm Azərbaycan intellektual mentalitetinin dərin qatlarına qədər nüfuz etmişdir. Bununla Akademiyanı inamla Azərbaycanda elmi yaddaş məkanı kimi səciyyələndirmək olar.

Qeyd edilən yanaşma prizmasında Azərbaycanda akademik tədqiqatlar ənənəsini, təcrübəsini və akademik düşüncə kültürünü fəlsəfi təhlil etmək olar.

Azərbaycanda akademik tədqiqat ənənəsinin özəllikləri

Öncə, elm ocaqlarının yaddaş məkanı kimi səciyyələndirilməsinin əsas məqamına aydınlıq gətirək. P.Nora yazır ki, yaddaş məkanlarında "yaddaş kristallaşır və özünə yer tapır" [Nora, 1999, s. 17]. Fransız tarixşünası bu məqamı obrazlı ifadə edir - "yaddaş konkret məkanda özünə sığınacaq tapır". Bəzən bu məcazı tədqiqatçılar düzgün anlamaqda çətinlik çəkirlər. Lakin P.Nora o mənada "sığınacaq" terminini işlədir ki, cəmiyyətdə sosial-mədəni, iqtisadi, mənəvi-əxlaqi və s. proseslər ənənəvi cəmiyyətlərdən (şifahi mədəniyyət növünün üstünlük təşkil etdiyi mərhələ) fərqli olaraq elə sürət, məzmun və təsir əhatəsi alır ki, sosial qrupların yaddaşı-cəmiyyət münasibətləri şifahi mədəniyyət dövründə olduğundan keyfiyyətcə fərqlənir. Yəni, P.Noraya görə, artıq ənənəvi cəmiyyətə hakim olan "yaddaş cəmiyyət" formulu pozulur (burada fransız alim şifahi mədəniyyət növündə informasiyaların tam olaraq nəsillərdən nəsillərə ötürülməsi kommunikasiya növünün özəlliyini nəzərdə tutur).

Nəticədə bizim indi anladığımız mənada "tarixi yaddaş", "yaddaş məkanı" kimi fenomenlər meydana gəlir. Bu prosesi obrazlı olaraq P.Nora cəmiyyəti tam əhatə edən və sosial qrupların yaddaşı olan hadisənin əvvəlki məzmunu və funksiyasını yerinə yetirə bilmədiyinə görə, yazılı mədəniyyət növü vasitəsi ilə "küncə sıxışdırılması", "cəmiyyətin həyatının

yalnız bir fraqmenti olması" kimi xarakterizə edir. Bu proses özlüyündə fəlsəfi aspektdə bir neçə özəlliyi daşıyır.

Birincisi, tarixi yaddaş yazılı mədəniyyət növündə əvvəlki şifahi mədəniyyət növündə olan yaddaşın müəyyən xüsusiyyətlərini daşıyır. Yəni yaddaşın yeni forma və məzmun alması kəsilməz prosesdir.

İkincisi, eyni zamanda, o, həm də ənənəvi yaddaşdan "ayrılma" deməkdir. Bu anlamda yazılı mədəniyyətdə yaddaş, ümumiyyətlə, yaddaş fenomenində kəsilənliyin yaranması deməkdir. Bu proses tarixi zaman kontinuumunda baş verir. Onun ən yaxşı fəlsəfi-nəzəri ifadəsini Yaşar Qarayev vermişdir. Böyük Azərbaycan alimi yazırdı: "Zaman – əbədi davam edən keçmiş deməkdir" [Qarayev, 2016, s. 13].

Y.Qarayevin "zaman" anlayışı sinergetik dinamikdir, yəni o, statiik mənada özündə ancaq "keçmişi daşıyan" dəyişməz, yeniləşməyən fiksasiya deyildir. Əksinə, zaman həmişə "müasirdir". Çünki, o, özündə keçmişi müasirlik naminə "daşıyır". "Müasirliyi "yaratmaq" üçün Zaman həmişə "keçmişi daşımalıdır". Başqa halda o, yəni Zaman hər anda məzmunlaşa bilməz. Eyni zamanda, Zamanın bu cür olması üçün yaddaşa mütləq ciddi "ehtiyacı vardır". Bunun da fəlsəfi izahı çətin deyildir. Məsələ onunla bağlıdır ki, Zaman nəyə nisbətən "müasirləşməli olduğu"nu "bilməlidir". Əgər biz zamanı sürəkli proses kimi qəbul ediriksə, onda müasirlik daima keçmişə nisbətən "müasirdir".

Bununla yanaşı, J.Delyozun əsas tezisinin də burada yeri vardır. O yazırdı ki, indi həmişə hazırkı anda zamanın keçmişə yayğınlaşması ilə gələcəyə hədəflənməsinin dialektik sintezidir [Qoryainov, 2020, s. 105-126]. Bu anlamda Zaman prosesdir, daim dəyişəndir, özünüyaradandır. Bu paradoksallığın məntiqi (insan üçün rasionallığın məntiqdən başqa kriteriyası yoxdur) Zamanı keçmiş-indi-gələcək kontinuumunda proses olaraq dinamik dərk etmək zərurətini ortaya qoyur. Həmin fəlsəfi məqamın yığcam və rəmzi ifadəsi Yaşar Qarayevin yuxarıda vurğuladığımız lakonik tezisində ifadəsini tapmışdır. Deməli, Y.Qarayevin Zaman anlayışı fonunda tarixi yaddaş həmişə kəsilməzliklə kəsilənliyin vəhdətidir.

Azərbaycan müasir elmi fikrində artıq bütün bu məqamların işığında yeni tədqiqat mərhələsinin başladığını görürük. Onun bariz nümunəsi akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepiyasıdır [Həbibbəyli, 2019]. Bu konsepsiyada İ.Həbibbəyli bədii təfəkkürün dövrləşdirilməsi probleminə üç tezisin sintezində baxır. Birincisi, dövrləşdirməyə ümumi halda zaman, onun konkret ifadə forması səviyyəsində milli mədəniyyət kontekstində yanaşır. İkincisi, dövrləşdirmədə həm də tarixi kontekstə əsaslı yer verir. Yəni Azərbaycan bədii təfəkkürünün müxtəlif özəlliklərini mövcud tarixi reallıqlar və şərtlər aspektində refleksiya edir. Üçüncüsü, "hər tarixi mərhələdə Azərbaycan bədii təfəkkürünün daşıyıcıları olan şəxsləri bütövlükdə xalqın intellektual, mənəvi-əxlaqi və mədəni sinerjisinin ən faydalı nümunələri kimi qəbul edir" [Qurbanov, 2025, s...]. Bu əsasda akademik İsa Həbibbəyli dövrləşdirmə konsepsiyasına azərbaycançılıq və dövlətçilik faktorlarını daxil edir. Bu xüsusiyyətinə görə, həmin dövrləşdirmə konsepsiyası çox maraqlı, əhəmiyyətli və perspektivlidir.

Akademik İsa Həbibbəyli vurğuladığımız özəllikləri əsərinin girişində aşağıdakı kimi ifadə etmişdir. İ.Həbibbəyli yazmışdır: "Azərbaycan xalqının milli-mənəvi dəyərləri, adət-ənənəsi, mənəviyyatı, mübarizəsi və idealları bu ədəbiyyatın ana xəttini, əsas qayəsini təşkil edir. Bu böyük ənənələri olan, Azərbaycan xalqının milli varlığını əks etdirən və onu dünyaya təqdim edən ədəbiyyatdır. Bu – Azərbaycan xalqının milli özünəməxsusluğunun ədəbi kimliyidir. Bu – ümummilli idealları əsrdən-əsrə yaşadan və inkişaf etdirən böyük ədəbiyyatdır. Bu – Azərbaycançılıq idealının ədəbi manifestidir!" [Həbibbəyli, 2019, s. 3]

Biz irəlidə dövrləşdirmə konsepsiyasına tarixi yaddaş, akademik tədqiqatlar ənənəsi, akademik tədqiqatlar təcrübəsi və akademik düşüncə kültürü kontekstində geniş toxunacağıq. Burada bir sıra məqamları yığcam ifadə edək.

Yuxarıda vurğuladığımız ümumfəlsəfi xarakterli məsələlərlə akademik İsa Həbibbəylinin bədii təfəkkürü dövrləşdirmə konsepsiyasının müqayisəsi göstərir ki, bütövlükdə fəlsəfi,

bədii, tarixi, humanitar, sosial, siyasi və digər təfəkkür növlərinin zaman kontinuumunda təhlili olduqca vacibdir. Çünki, bununla biz ən azı iki məsələni aydınlaşdırmış oluruq. Birincisi, Azərbaycan fəlsəfi, tarixi, elmi, bədii və digər təfəkkürünün Zaman dinamikasında dəyişmə özəlliklərini dərk etmək imkanı yaranır. İkincisi, bu prosesin qədim dövrlərdən başlayaraq ciddi elmi kriteriyalarla sistemləşdirilməsi ümumilikdə Azərbaycan intellektual, mədəni, mənəvi, ideya dəyərlərinin bütöv, kəsilməz, davamlı və konkret məqsədli proses olduğunu yeni səviyyədə əsaslandırmış oluruq. Üçüncüsü, akademik İsa Həbibbəylinin vurğulanan proseslərdə kriteriyalardan biri kimi azərbaycançılıq və dövlətçiliyi nəzərə alması yeni yanaşmanın əsas məqamını təşkil edir. Bu, ümumiyyətlə, Azərbaycan fəlsəfi, tarixi, elmi, bədii və digər təfəkkür növlərinin təkamülündə vətənçiliklə dövlətçiliyin üzvi surətə nəzərə alınmasına imkan yaradır.

Biz bütün bu məqamları nəzərə alaraq Azərbaycanda “akademik tədqiqat ənənəsi”, “akademik tədqiqat təcrübəai” və “akademik düşüncə mədəniyyəti” anlayışlarına İsa Həbbibəylinin bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyasında müəyyən etdiyi krtieriyalar prizmasında baxmağı faydalı və düzgün hesab edirik. Bu yanaşmada tarixiliklə mədəniyyətin azərbaycançılıq və dövlətçilik müstəvisində maraqlı sintezi ifadə edilmişdir. Eyni zamanda, həmin yanaşma fəlsəfi mahiyyətli iki mühüm tezisin fonunda faydalı görünür. Onlar P.Noranın “tarix artıq mövcud olmayanın həmişə problematik və tam olmayan yenidən konstruksiyasıdır” və “yaddaş həmişə əbədi indi ilə daxili bağlantısı olan aktual fenomendir” tezisləridir.

Beləliklə, məqalədə qoyulan elmi problemə yanaşmanın nəzəri və metodoloji aspektlərini formalaşdırmış oluruq. Həmin prizmada “Azərbaycanda akademik tədqiqat ənənəsi, akademik tədqiqat təcrübəsi və akademik düşüncə mədəniyyəti hansı özəlliklərə malikdir?” sualına fəlsəfi cavab axtarmağa çalışaq.

(ardı var)

**İstifadə olunmuş ədəbiyyat**


1. Обама: Наука нужна как никогда раньше: [Электронный ресурс] // trv-science.ru, 26.05.2009. URL: https://www.trv-science.ru/2009/05/obama-nauka-nuzhna-kak-nikogda -ranshe/. Müraciət tarixi 09.03.2025.
2. Hunter, M. Royal Society: [Electronic resource] // British Science Society, 2019. URI:https://web.archive.org/web/20190322084417/https://www.britannica. com/topic/Royal-Society. Müraciət tarixi 09.03.2025.
3. Royal Society.British science society: [Electronic resource] // britannica, 2025. URL: https://www.britannica.com/topic/Royal-Society. Müraciət tarixi 09.03.2025.
4. TÜBA: [Elektron resurs] // Türkiye Bilimler Akademisi, 2025. URL: https://www. tuba.gov.tr/tr/. Müraciət tarixi 09.03.2025.
5. Əlizadə, A. Azərbaycan akademik elmi son 70 ildə: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 13.11.2015. URL: https://science.gov.az/az/news/open/2728. Müraciət tarixi 09.03.38.
6. Orta Əsrlər şərqində elm akademiyaları: [Elektron resurs] // URL: https://islam.az/51145/ orta--esrler-serqinde-elm-akademiyalari/ Müraciət tarixi 09.03.2025.
7. Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə inkişaf konsepsiyası və yol xəritəsi. – Bakı, – 2025, – 120 s.
8. Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair məruzə və çıxişlar toplusu Bakı. “Elm”. – 2024, – s.10-11.
9. Qurbanov¸ F.M. AMEA inkişaf və yeniləşmə yollarında. Baakı, 2025, ...s.

10. Həbibbəyli, İ. Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, - 2023, 01 may. URL: https://science.gov.az/az/news/open/24893. Müraciət tarixi 12.03.2025.
11. Франция-память / П. Нора, М. Озуф, Ж. де Пюимеж, М. Винок / Пер. с фр.: Дина Хапаева. - СПб.: Изд-во С.-Петерб. ун-та. - 1999, - с. 17-50.
12. Qarayev, Y. Seçilmiş əsərləri. 5 cilddə, IV c. – Bakı, Elm, - 2016, - 776 s.
13. Горяинов, О. Как кричит мысль? Возможность Нового как условие политической онтологии в «Образе-времени» Жиля Делёза // Логос. -2020, т. 30, №5, с. 103-130.
14. Həbibbəyli, İ. "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri". Bakı, "Elm", - 2019, - 448 s.

**Rəyçi:** **f.e.d. Əli Abasov**

**Göndərilib: 13.03.2025** **Qəbul edilib: 27.03.2025**